UOT 78.03

NURAY BƏKTAŞİ

# NAXÇIVAN MUSİQİ KOLLECİNİN YARANMASI VƏ FƏALİYYƏTİ (1975-1990)

*Məqalədə Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbinin yaranması və fəaliyyəti ətraflı şəkildə öz əksini tapmışdır. Məktəbə dahi bəstəkar Üzeyir Hacıbəylinin adının verilməsi, məktəbdə Azərbaycan, həm də rus sektorunun fəaliyyət göstərməsi, direktor Səidə Məmmədova ilə yanaşı digər istedadlı musiqiçilərin fəaliyyətindən söz açılmış və həmçinin məktəbin inkişaf yolu mərhələlər üzrə izlənmişdir. Bunlarla yanaşı məqalədə musiqi təhsilinin inkişafı, eləcə də burada musiqili kadrların yetişdirilməsi, məktəbin nəzdində fəaliyyət göstərmiş musiqili ansamblar haqqında geniş məlumat verilmişdir.*

**Açar sözlər:** *Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbi, musiqi təhsili, musiqi, ansambl, xor kollektivləri.*

Qədim Azərbaycan torpağı olan, öz zəngin mədəni irsi, möhtəşəm tarixi keçmişi, özünəməxsus ənənələri olan Naxçıvan diyarı həm də Azərbaycan tarixində, mədəniyyətində mühüm yerə sahib olmuşdur. Belə ki, Naxçıvanın hələ XII əsrdə böyük Atabəylər dövlətinin paytaxt şəhəri olması, intibah ideyalarının, mədəniyyətinin əsas mərkəzlərindən olması, elm, mədəniyyət, incəsənət, memarlıq və digər sahələrdə mühüm uğurların əldə olunması Naxçıvanın inkişafında müsbət mənada öz təsirini göstərmişdir. Məşhur türk Səyyahı Övliya Çələbi Naxçıvanın tarixi mədəniyyəti ilə yanaşı buradakı mədrəsələr və bu mədrəsələrdə verilən təhsil haqqında da öz "Səyahətnamə"sində məlumat vermişdir.

Bu köklü ənənələr üzərində təşəkkül tapan təhsil və mədəniyyətin inkişafı XX əsrin əvvəllərindən etibarən yüksək səviyyəyə çatdırılmış, ötən əsrin əvvəllərində təhsil, mədəniyyət, incəsənətə artan diqqətin nəticəsində musiqi mədəniyyətimizin öyrənilməsi, təbliği və toplanaraq gələcək nəsillərə çatdırılması istiqamətində də mühüm işlər görülməklə yanaşı musiqi təhsili, musiqili kadrların yetişdirilməsi sahəsində də çox tədbirlər görülmüşdür. İkinci Dünya Müharibəsi illərində bütün sahələrdə olduğu kimi musiqi təhsili sahəsində də müəyyən durğunluq yaransa da müharibənin bitməsi ilə digər sahələrlə yanaşı musiqi mədəniyyəti və musiqi təhsili sahəsində də irəliləyişlərə imza atılmışdır.

1937-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Naxçıvan şəhərində ilk uşaq musiqi məktəbinin yaradılması, müəyyən dövrdə məktəbin ilkliyini qorumasına baxmayaraq, zamanla təkcə Naxçıvan şəhərində deyil rayon və kəndlərimizdə də uşaq musiqi məktəbləri təsis olunmuş və formalaşan yeni nəslin musiqi sahəsində təhsil alması və musiqi mədəniyyətimizin inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikası musiqi mədəniyyəti, musiqi təhsili sahəsində aparıcı yerlərdən birini tutan, doğma diyarda orta ixtisas musiqi təhsili verən ilk məktəb olan, sonralar texnikum kimi fəaliyyətini davam etdirən təhsil müəssisələrindən biri də 1975-ci ildə ümummilli lider Heydər Əliyevin göstərişi ilə yaradılan və fəaliyyəti dövründə dahi rəhbərin diqqəti və nəzarəti altında olan Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbidir. Bu məktəb Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirinin 3 aprel 1975-ci il tarixli 175 nömrəli əmri əsasında yaradılmışdır. Məktəbin yaranmasının maraqlı tarixçəsi vardır. Naxçıvan Muxtar Respublikasının yaranmasının 50 illik yubileyində iştirak etmək üçün Naxçıvana səfər edən ulu öndər Heydər Əliyevin göstərişi ilə Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbi yaradılması nəzərdə

tutulmuşdur [1, v.1]. Məktəbə dahi bəstəkar Üzeyir Hacıbəyovun adı verilmişdir. Məktəbdə tədris 1975-ci ilin 1 sentyabr tarixində başlamışdır. Məktəbdə ilk günlərdə 4 müəllim çalışmışdır. Bunlar Səidə Məmmədova, Həlimə Məhərrəmova, Arif Məhərrəmov və Dilqəm Məhərrəmov idi. İlk tədris ilində məktəbə 31 şagird qəbul olunmuşdur. Bunlar fortepiano-12, xalq çalğı alətləri-15, simli alətlər-1, vokal-3 nəfər olmuşdur. Həmin dövrdə məktəbdə həm Azərbaycan, həm də rus sektoru fəaliyyət göstərmişdir. Azərbaycanlı tələbələrin sayı ilk ildə 23, rus dilli sektoruna isə 8 nəfər qəbul olunmuşdur [3, v.1]. Buna baxmayaraq 26 şagird 4 ixtisasda təhsilini davam etdirmişdir. 4 illik təhsil müddəti müəyyən olunan məktəbdə axşam və qiyabi şöbələrin də fəaliyyət göstərməsi istiqamətində də müəyyən işlər görülmüşdür. Məktəbin bina və digər təchizatını nəzərə alaraq Naxçıvan MSSR Nazirlər Sovetinin 16 aprel 1975-ci il tarixli 119 nömrəli əmri ilə beşmərtəbəli bina orta ixtisas musiqi məktəbinin sərəncamına verilmişdir. Məktəbdə ilk günlərdən Vaqif Məmmədovun rəhbərliyi ilə "Nəqşi-cahan" vokal instrumental ansambl yaradılmış və səmərəli fəaliyyəti ilə muxtar respublikanın mədəni həyatında fərqlənmişdir. Məktəbdə yaradılan, uğurlu fəaliyyəti ilə diqqəti cəlb edən ansambllardan birini də istedadlı tarzən Əkrəm Məmmədov yaratmışdır ki, onun 1983-cü ildə yaratdığı "Əcəmi naxışları" ansamblı muxtar respublikanın musiqi və incəsənət həyatında böyük əks-səda doğurmuş, tarixi hadisə kimi qiymətləndilirmişdir. Qeyd edək ki, Əkrəm Məmmədov eyni zamanda bu məktəbdə fəaliyyət göstərməklə, bir sıra milli musiqimizi təbliğ edən əsərlər də yazmış, həmçinin 80-ə yaxın yallını toplayaraq "Şərur el yallıları" adı altında (2018) nəşr etdirmişdir [2, v.1]. Məktəbə 1976-77-ci tədris ilində 34 şagird qəbul olunmuş, onların təhsili ilə ümumilikdə 26 müəllim məşğul olmuşdur. 1977-78-ci tədris ilində isə məktəbdə pedaqoji fəaliyyətlə məşğul olan 40 müəllim var idisə, buna qarşılıq 114 şagird təhsil alırdı [4, v.1]. 1979-cu ildə Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbinin ilk məzunları arasında Tariyel Abbasov, Məlahət Kəngərli, Əliağa Seyidov və başqaları var idi. Məktəbdə direktor vəzifəsində işləyən Səidə Məmmədova ilə yanaşı, Rəşid Məmmədov, Həsənağa Qurbanov, Əqidə Ələkbərova, Tapdıq Bağırov, Rza Abbasov kimi istedadlı musiqiçilər məktəbin fəaliyyəti yolunda çoxsaylı nailiyyətlərə imza atmaqla, ümumilikdə muxtar respublikada mədəni quruculuq işinin təkmilləşməsi, musiqi təhsilinin nümunəvi şəkildə aparılması üçün çalışmışlar. 1978-79-cu tədris ilində məktəbə 28 şagird qəbul olunmuşdursa, həmin dövrdə məktəbdə ümumilikdə 118 şagird təhsil almışdır [5, v.1]. 1979-80-ci tədris ilində isə məktəbə 35 nəfər şagird 5 ixtisas üzrə qəbul olunmuşdur [6, v.1]. İllər üzrə bu göstəricilərin daha da artdığını müşahidə etməklə məktəbin fəaliyyətinin daha da təkmilləşdiyinin şahidi oluruq. Belə ki, 1981-82-ci tədris ilində məktəbə 33 nəfər qəbul olunmuş və 1982 və 1983-cü illərdə isə 28 nəfər məzun olmuşdur [6, v.1]. Sonrakı illər üzrə bu rəqəmlər arxiv sənədlərində belə əksini tapmışdır. 1983-84-cü tədris ilində məktəbə 31 şagird qəbul olunmasına baxmayaraq 29 şagird məzun olmuş, 1984-85-ci tədris ilində 32 nəfər qəbul olunmaqla yanaşı 29 nəfər məzun olmuş, 1985-86-cı tədris ilində 31 nəfər qəbul edilmiş, 32 nəfər məzun olmuşdur. Qeyd edək ki, 1984-85-ci tədris ilində məktəbdə nağara sinfi fəaliyyət göstərməyə başlamışdır. Bu ildə 15 nəfər əlaçı, 103 nəfər ümumi təqaüdə layiq görülmüşdür [6, v.1]. Bu gün Naxçıvan Muxtar Respublikasında musiqi sənəti, musiqi təhsilinin inkişafından danışarkən, musiqi kollektivlərinin yaradılması və uğurlu fəaliyyətindən bəhs edərkən məktəbdə uzun illər direktor vəzifəsində işləyən, məktəb tarixində nümunəvi xidmətləri olan, onun 1987-ci ildə yaratdığı simfonik orkestr məktəbin, eləcə də Naxçıvan musiqi dünyasının zənginləşməsində xüsusi rol oynamış, yuxarıda adlarını xüsusi ehtiramla çəkdiyimiz sənət adamlarından biri də Səidə Məmmədovadır.

Azərbaycan və rus bölmələrinin fəaliyyət göstərdiyi Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbində 1988-ci ildən etibarən rus bölməsi fəaliyyətini dayandırmışdır. Məktəbdə həmin illərdən etibarən həm yeni ixtisasların açılması, həm də musiqi tarixinin öyrənilməsi məqsədi

ilə direktor Səidə Məmmədovanın təşəbbüsü ilə "Musiqi nəzəriyyəsi" və "Xor dirijorluğu" ixtisasları açılmışdır [7, v.1]. 1988-89-cu tədris illəri üçün bu ixtisaslara 3 nəfər qəbul olunması nəzərdə tutulmuşdur [8, v.1]. 1988-89-cu tədris ilində məktəbə 35 nəfər şagird qəbul olunmuşsa 30 nəfər şagird məzun olmuşdur [9, v.1]. İllər üzrə arxiv sənədlərində aparılan araşdırmalar zamanı öz əksini tapan göstəricilərdən məlum olur ki, məktəbdə əsasən illər üzrə qəbul olunan şagirdlərin sayı məzun olan tələbələrdən çox olmuşdur. Bu fakt özlüyündə məktəbdə musiqi təhsilinin inkişafının artan templə getdiyini deməyimizə əsas verir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin diqqət və qayğısı ilə yaradılan, uğurlu fəaliyyət yolu keçən Naxçıvan Şəhər Orta İxtisas Musiqi Məktəbinin fəaliyyət yolu müstəqillik illərində daha da diqqətçəkən olmuşdur. Müstəqillik illərində respublikada eləcə də Naxçıvan Muxtar Respublikasında yaradılan hərtərəfli şərait, göstərilən yüksək dövlət qayğısı nəticəsində Naxçıvan Musiqi Kolleci uğurla davam etməklə yanaşı, muxtar respublikanın təhsil və mədəni həyatına öz töhfələrini verməkdədir.

## ƏDƏBİYYAT


1. Şərq qapısı qəzeti, 30 mart 2015.
2. "Şərq qapısı" qəzeti, 01 oktyabr 2014.
3. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 2.
4. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 6.
5. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 13.
6. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 19.
7. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 8.
8. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 76.
9. Naxçıvan MRDA. f. 529, siy. 4, iş 10-12.



*AMEA Naxçıvan Bölməsinin doktorantı*
*bektashi.nuray@gmail.com*



NURAY BEKTASHI


## THE ESTABISHMENT AND ACTIVITIES OF THE NAKHCHIVAN MUSIC COLLEGE (1975-1990)


The article provides detailed information about the establishment and activities of Specialized Secondary Music School of Nakhchivan City . Giving the name of the great composer Uzayir Hajibeyli to the school, functioning of the Azerbaijani and Russian sectors in the school, activities of other talented musicians along with director Saida Mammadova are mentioned in the article and the progress of the school is followed in phases. In addition to the aforementioned, the article informs about the development of music education, as well as the training of music personnel, musical ensembles performing in the school.



**Keywords:** *Specialized Secondary Music School of Nakhchivan City,music education, music, ensemble, choral collective.*

**НУРАЙ БЕКТАШИ**

## НАХЧЫВАНСКИЙ МУЗЫКАЛЬНЫЙ КОЛЛЕДЖ: ОБРАЗОВАНИЕ, ПУТЬ ДЕЯТЕЛЬНОСТИ (1975-1990)

В статье подробно описано образование и деятельность Нахчыванской Городской Среднеспециальной Музыкальной Школы. Прослежены основные этапы развития школы под именем выдающегося композитора У Гаджибекова, функционирование в школе азербайджанского и российского секторов, деятельность директора Саиды Мамедовой и других талантливых музыкантов. Кроме этого, в статье приведены обширные сведения о развитии музыкального образования, а также воспитании музыкальных кадров и функционирующих в школе музыкальных ансамблях.

**Ключевые слова:** *Нахчыванская Городская Средняя Музыкальная Школа, музыкальное образование, музыка, ансамбль,хоровые коллективы.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişd*ir)

**Daxilolma tarixi: İkin variant 04.10.2019**
**Son variant 20.11.2019**